*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2025, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 162-170* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2025.1.162*

# Postmodern cəmiyyətdə milli kimlik və gender problemi

**Südabə Ağabalayeva**
Filologiya üzrə fəlsəfə doktoru
Bakı Slavyan Universiteti
E-mail: sudabe334@mail.ru

**Annotasiya.** Məqalədə gender termininin yeni anlayış olmamasından, Azərbaycan elmi-kütləvi nəşrlərində 40 ilə yaxın müddətdə dövriyyəyə daxil olmasından bəhs edilir. Bəşər tarixinin ayrı- ayrı dövrlərində martriarxat və patriarxat məfhumları müxtəlif münasibətlərlə müşayiət olunmuşdur. Bu müxtəlifliyin cinslərarası münasibətlərin mahiyyətinə, onların xarakterinə təsirsiz ötüşmədiyini iddia etmək doğru olmazdı. Məhz bu bölgü, cinslərarası bioloji və sosial fərqlərin yaratdığı disbalans, əslində, gender tədqiqatlarının inkişafına zəmin yaratmışdır.
Bu gün beynəlxalq hüquqi sənədlər birmənalı şəkildə qeyd edir ki, gender bərabərliyinə nail olmaqla bağlı qadınların qarşısında qoyulan məsələlər ancaq kişilərlə tərəf – müqabil əsasda həll oluna bilər.
Fəlsəfi – siyasi kontekstdə bu termin cəmiyyətdə baş verən proseslərdə cinslərin qarşılıqlı münasibətlərini, hüquqi aspektdə isə, bərabərlik hüququnu izah edir.
**Açar sözlər:** media, gender, feminizm, milli-mənəvi dəyər, ailə institutu, maarifləndirmə

**Məqalə tarixçəsi:** göndərilib – 22.05.2025; qəbul edilib – 12.06.2025

# National identity and gender issues in postmodern society

**Sudaba Aghabalayeva**
Doctor of Philosophy in Philology
Baku Slavic University
E-mail: sudabe334@mail.ru

**Abstract.** This article discusses that the term *gender* is not a novel concept and has been circulating in Azerbaijani scientific and popular literature for nearly 40 years. Throughout different periods in human history, the concepts of matriarchy and patriarchy have been accompanied by varying social relations. It would be inaccurate to claim that this diversity did not affect the essence and nature of intergender relations. Indeed, this division, along with the biological and social disparities between genders, created an imbalance that laid the groundwork for the development of gender studies.
Today, international legal documents unequivocally state that issues related to achieving gender equality and addressing women's challenges can only be resolved on the basis of partnership and equality with men.
Within the philosophical and political context, this term explains the reciprocal relations between genders in societal processes, whereas from a legal perspective, it defines the right to equality.
**Keywords:** media, gender, feminism, national-spiritual values, family institution, enlightenment

**Article history:** received – 22.05.2025; accepted − 12.06.2025

### Giriş / *Introduction*

Gender termininin Azərbaycan elmi-kütləvi nəşrlərində dövriyyəyə daxil olmasının təqribən 40 ilə yaxın yaşı vardır. Halbuki, gender ictimai-siyasi və hüquqi sistemdə, eləcə də dünyagörüşü kimi yeni anlayış deyil. Fəlsəfə də gender dünyagörüşünü idrakın ən qədim problemləri sırasında təqdim və tədqiq edir. Qədim Çin, antik yunan filosofları, orta əsrlər, yeni dövr fikir adamlarının ideyalarında cinslərin azadlıq və bərabərliyi məsələsi izlənilsə də, nəticə etibarilə bu axtarışlar ideal dövlət və ideal qadın səciyyəsindən uzağa getməmişdir.

### Əsas hissə / *Main part*

Bütövlükdə problemin öyrənilməsinin 3 mərhələsi qruplaşdırılır:

Qədim dövrdən XVIII əsrədək olan ilkin mərhələdə patriarxal ənənələrin işləkliyi, qədim yazılı mənbələrdə cins ayrı-seçkiliyi, qadın-kişi mövqelərində dəyişikliyə doğru təşəbbüslər, nəhayət, Şərq-Qərb mədəniyyətlərinin məsələyə münasibətdə oxşarlıqlarının və özünəməxsusluqlarının müəyyən edilməsi sistemləşdirilmişdir.

XVIII-XIX əsrlərdən başlayaraq, XX yüzilliyin ortalarınadək olan dövrdə diqqətçəkən məqamlar qadının ictimailəşməsi, qadın hüquqları uğrunda mübarizəni aktuallaşdıran yanaşmalar sırasında təşkilatlanma ideyalarının müdafiəsi, feminizm nəzəriyyə və cərəyanları, elmi-bədii təcrübədə biososial qrupların hüquq bərabərliyinin təbliği, nəticədə, nəzəriyyə və təcrübələrin ümumiləşdirilməsi ilə səciyyələnir [6, s.330].

Genderin yeni elmi istiqamət kimi inkişafı və genderşünaslığın qlobal elm kimi qəbul edilməsi ilə xarakterizə olunan növbəti mərhələdə gender münasibətləri insanlığın ictimai-siyasi və hüquqi statusu səviyyəsində öyrənilir.

Bəşər tarixinin ayrı-ayrı dövrlərində martriarxat və patriarxat məfhumları müxtəlif münasibətlərlə müşayiət olunmuşdur. Bu müxtəlifliyin cinslərarası münasibətlərin mahiyyətinə, onların xarakterinə təsirsiz ötüşmədiyini iddia etmək doğru olmazdı. Məhz bu bölgü, cinslərarası bioloji və sosial fərqlərin yaratdığı disbalans, əslində, gender tədqiqatlarının inkişafına zəmin yaratmışdır.

Bu gün beynəlxalq hüquqi sənədlər birmənalı şəkildə qeyd edir ki, gender bərabərliyinə nail olmaqla bağlı qadınların qarşısına qoyulan məsələlər ancaq kişilərlə tərəf-müqabil əsasda həll oluna bilər.

Əksər tədqiqatların gəldiyi nəticələrin məzmunu genderi dinamik konsepsiya kimi nəzərdən keçirir və o, cəmiyyətin mədəniyyəti vasitəsilə aşılanır. Mədəniyyəti dəyərlər dünyası kimi təqdim edən aksiosfera nəzəriyyəsinə görə, o, (mədəniyyət) realizə olunmuş, təcəssümünü tapmış dəyərlərdir. Hər bir toplumun, fərdin istənilən mədəni təzahürünün əsasında tənzimləyici norma və inancların, stereotiplərin olmasının mühümlüyü genderin də aksiologiyanın tədqiqat predmeti olduğunu təsdiq edir. Xüsusilə, postmodern cəmiyyət gender şüurunu – ətrafa yeni gözlə baxmağı, hər cür yeniliyə açıq olmağı – gender identikliyinə bağlayır. Gender identikliyi kişilik və qadınlığın mədəni təyinatında əks olunur. Burada mühüm olan həm də mədəniyyətin təbiətindəki dinamikliyin rolunun da nəzərə alınmasıdır.

Fəlsəfi-siyasi kontekstdə bu termin cəmiyyətdə baş verən proseslərdə cinslərin qarşılıqlı münasibətlərini, hüquqi aspektdə isə bərabərlik hüququnu izah edir. XX əsrin 70-ci illərindən etibarən ingilisdilli ədəbiyyatda yer alan bu söz cins məfhumunun çoxçalarlılığını ifadə edir [5, s.84].

Genderşünaslıq təsdiq edir ki, bir elm kimi onun obyekti hər iki cinsdir. O zaman niyə bir sıra kütləvi nəşrlərdə, bəzi elmi ədəbiyyatlarda onu yalnız "qadın elmi" adlandırır, yaxud yalnız qadın hüquqlarının müdafiəsi prizmasından şərh edirlər? Daha doğrusu, bu ifadə feminizmlə eyniləşdirilir, mahiyyəti etibarilə bərabərsizliyə qarşı gender istiqaməti qadağa və sədd kimi qəbul edilir. Zənnimizcə, burada ənənəvi təsəvvür və stereotiplərlə yanaşı, gender maarifləndirməsi sahəsində

müəyyən boşluqların olması da etiraf edilməlidir. Doğrudur, sivil dövlətlər bərabərlik hüququnu qanunvericilikdə təsbit edir. Bu gün "gender" anlayışı sosiallaşmanın təzahürü kimi çıxış edir və beynəlxalq, regional, eləcə də milli problem kimi qəbul edilir. Adət-ənənələr, mədəni-mənəvi irs qaynaqları cinslərarası bərabərsizliklə bağlı təsəvvür və düşüncələri ən müasir cəmiyyətlərə də daşıyır.

Genderin nəzərdə tutduğu hüquq və imkanların bərabərliyi anlayışı başqa bir məqamı da aktuallaşdırır. Belə ki, resurslara çıxış imkanları və onların bölüşdürülməsində olduğu kimi, biososial qrupların ənənəvi rolları ilə bağlı münasibətdə məsuliyyətin bölüşdürülməsi də diqqətdə saxlanılmalıdır.

Beynəlxalq təsisatlar, o cümlədən Avropa Şurasının məşhur İstanbul Konvensiyası (2011) qadınların siyasi həyatda iştirakı, ədalət mühakiməsinə çıxış imkanı və zərərli gender stereotiplərinin aradan qaldırılması məsələsində ləng irəliləyişlə bağlı narahatlığı ifadə etsə də [1, s.17], hesab edirik ki, 30 ildən bəri davam edən millətçilik, etnik qarşıdurmalar zəminində davam edən qaçqın, didərgin – köçkün problemi, işsizlik, iqtisadi çətinliklər həm də gender bərabərliyinə qarşı ciddi maneə olmaqla yanaşı, beynəlxalq sənədlərdə razılaşdırılmış standartların tətbiqində boşluqlara rəvac verir. Belə olduqda, yalnız qadınların "qurban" kimi təqdim edilməsi səylərinin ritorikası işə yaramır.

Azərbaycan cəmiyyətinin son 30-35 ildə məruz qaldığı antihumanist yanaşma bütövlükdə biososial qrupları, onların hüquq və azadlıqlarını, eyni zamanda potensiallarını məhdudlaşdıran "stereotip"lərin qurbanına çevirmişdi; insanın ən əsas hüququ olan mülkiyyət hüququndan məhrum edilmiş 1 milyon 200 min vətəndaşın düçar edildiyi məhrumiyyətlər fonunda gender nəzəriyyələri, gender psixologiyası haqqında nikbin düşünmək və danışmaq heç də inandırıcı görünmür. Azərbaycan cəmiyyəti, eləcə də müharibə fəlakətləri yaşamağa düçar edilmiş ölkələrin bütün vətəndaşları eyni dərəcədə "qurban" faciəsi yaşamışlar. Müharibə və münaqişələrdə həlak olan hər kişi, qadın, uşaq "insan hüquqlarının pozulması" faciəsini elə beynəlxalq ictimaiyyətin gözü qarşısında yaşayır və ikili yanaşma standartları – "əzilən və əzən" haqqında soyuqqanlı ritorika bu məsələ ilə bağlı sənədləri və onların işləkliyini şübhə altına alır və "cinsi ayrı-seçkilik yolverilməzdir" diqtəsinin soyuqqanlı patetikası "sülh və ədalət" anlayışlarını şübhə və inamsızlıq faktı qarşısında qoyur. Unutmaq olmaz ki, texnoloji vüsətin sürət və imkanları "arxa və ön cəbhə" anlayışları arasında fərqi elə eyni sürətlə aradan qaldırır.

Əlbəttə, "gender balansını yalnız media gözləmir" fikri də düzgün deyildir. Reytinq naminə hər cür mənəvi və hüquqi disbalansı "unudan" media mental dəyərlərə biganəliyi "dünya praktikasında mövcud reallıqların yerli mediaya gətirilməsində", nədənsə, daha çox mental dəyərlərə zidd davranış və tərzlərin təqdimi üzərində dayanır. Cinsi azlıqların, cinsi dəyişmək hallarının, fərqli oriyentasiyalılarla bağlı, eləcə də cinsi nifrət aşılayan xəbərlərin yayılmasını demokratik düşüncə, insan hüquqlarına və seçim azadlığına hörmət kimi yanaşmalar adı altında "fəaliyyətə" haqq qazandıranların mövqeyi şübhə doğurmaqla qalmır, bu fəaliyyətin xüsusən yeniyetməlik və gəncliyin məhdud və kövrək dünyagörüşünə təsirləri ilə bağlı xəbərdarlıqları, ən yumşaq halda, diskriminasiya, "mühafizəkarlıq" yarlığı ilə qınayır. Burada "mühafizəkarlığın" gerilik, avamlıq, köhnəfikirlilik anlamında işlədildiyini xatırlatmağa ehtiyac yoxdur. Fərdin seçim azadlığının toplumun azadlığının məhdudlaşdırılması hesabına müdafiəsinin yolverilməzliyi medianın fəaliyyətində yalnız etik meyarlarla nizamlanmamalıdır, mənəvi meyarlarda balansın gözlənilməməsi hallarında hüquqi tənzimlənmə tələbi qaçılmazdır. Nəzarət olunmayan zövq və mənfəətin nəticələri haqqında nümunələr sırasında medianın özünün də zərərçəkən qismində olması heç də təəccüblü olmayan statistikadır.

Bir halda ki, gender bərabərliyinin qorunmasında medianın rolu arzuolunmaz vəziyyətin aradan qaldırılmasında yetərli deyil, o zaman belə bir sual yaranır: mediada gender bərabərliyi probleminin həlli istiqamətində hansı əməli təkliflər mümkündür? Hər şeydən əvvəl, Azərbaycan kütləvi informasiya vasitələrində çalışanların gender və gender bərabərliyi ilə bağlı məlumat, bilik və

savadlılığına nail olmaq lazımdır. Bu, yalnız jurnalist kadrları hazırlığının məcburi tədris yükünə daxil edilməklə məhdudlaşmamalıdır. Pandemiyadan əvvəlki dövrdə Avropa Şurasına üzv ölkələr sırasında ilk dəfə olaraq Azərbaycanda pilot layihə şəklində Bakı Dövlət Universitetində tətbiqi nəzərdə tutulan "Gender bərabərliyi və media azadlığı" fənninin tədrisi ilə bağlı AŞ Bakı ofisi ilə həmin universitet arasında razılıq əldə olunmudu [3, s.11]. Kurikulumun hazırlanmasına müvafiq qurumun jurnalistika və hüquq fakültələri cəlb olunmuşdu. Həmin layihənin Bakı Slavyan Universitetində jurnalist kadrları hazırlığının bakalavr və magistr pillələrində də davamlı tətbiqi və tədrisi müsbət gözləntilər proqnozlaşdırmağa imkan verir.

Gender savadlılığı ilə bağlı cəmiyyətin ehtiyac və tələblərinin öyrənilməsi və ödənilməsi aktuallığını nəzərə almaq mühümdür. Bunun üçün genderin fəlsəfə, sosiologiya, təbabət, psixologiya, eləcə də digər elm sahələri ilə qarşılıqlı əlaqəsi ilə bağlı elmi tədqiqatların nəticələrinin kütləvi məlumat bazalarında təqdim olunması bu sahədə maarifləndirmənin səmərəliliyinin artırılması vasitələrindən biri kimi tövsiyə oluna bilər. Humanitar və sosial elmlərin tədrisi ilə məşğul olan tədris müəssisələrində ixtisaslara müvafiq olaraq, genderşünaslığın tədrisi üçün yalnız beynəlxalq səviyyəli institutların təklif və tövsiyələrinin nəzərə alınması kafi deyildir. Unutmaq olmaz ki, yuxarıda qeyd olunduğu kimi, "gender"in elmi kateqoriya kimi qəbul edilməsi təcrübəsi gənc olsa da, onun prinsip və strategiyasının tətbiqi ilə bağlı Azərbaycan cəmiyyətinin kifayət qədər zəngin milli zəminə əsaslanan dünyagörüşü vardır. Düzdür, 70 illik ideoloji iqtidar SSRİ-də "cins problemi"nin birdəfəlik həll edildiyi fikrini təbliğ edirdi, dünyanın bir sıra sivil dövlətlərində olduğu kimi, Konstitusiya qadın və kişilərin bərabər hüququnu təsbit edirdi, kvota siyasəti diqqətdə saxlanılırdı; idarəetmədə, seçkili orqanlarda qadınların faiz üzrə təmsil olunması nəzərdə tutularkən keyfiyyət-kəmiyyət balansı ilə bağlı susmağa üstünlük verilirdi. Bir tərəfdən kosmosun fəthində qadının iştirakına şərait və imkan yaradılır, fəhlə-kəndi sinfinin və ziyalı təbəqənin seçilmiş qadın qəhrəmanları, qabaqcıl qadın nümumələri sovet mətbuatında gündəmin əsas mövzularından idi. Çoxlu sayda belə təqdiredici nümunələr fonunda cinayətkar dünyanın qadın "qəhrəmanları" heç bir halda bədii-publisistik yaradıcılıqda obrazlaşdırılmır, qədim peşə sahibləri, qadın-islah əmək koloniyalarının sakinləri "rəğbətoyadacaq" üslubda təqdim olunmurdu. Bu mövzular barədə susulması mövcudluq faktlarının inkarı kimi izah oluna bilməzdi, antiestetikliyin və antireklamın əks təsirləri nöqteyi-nəzərindən başa düşülmək kimi yozuma da açıq olduğu inkar olunmamalıdır.

1981-ci ildə SSRİ "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" beynəlxalq Konvensiyaya qoşulmuş, bundan 10 il sonra isə Moskvada "Gender tədqiqatları: vəziyyəti və perspektivləri" problemlərinə dair beynəlxalq görüş keçirilmişdir.

Şərqdə ilk demokratik Respublika qurmuş Azərbaycanın Cümhuriyyət təcrübəsi hələ XX əsrin II onilliyində insan haqlarının, o cümlədən qadın hüquqlarının təsbitini siyasi məramnaməsində bəyan etmişdir.

Bu gün Azərbaycan mediasında diskriminasiya nümunəsi kimi kvota siyasətinin tez-tez gündəmə gətirilməsinə rəğmən, ölkədə siyasi və qanunverici hakimiyyətin ən yüksək pillələrində qadın təmsilçiliyi faktı nümunədir. Belə ki, ölkənin birinci xanımı Mehriban Əliyeva Azərbaycanın I Vitse-prezidenti, Sahibə Qafarova Milli Məclisin spikeri vəzifələrində hər hansı diskriminasiya motivləri müşahidə edilmədən uğurla fəaliyyət göstərirlər. Belə nümunələrin sayını artırmaq çətin deyildir.

Əlbəttə, SSRİ dövründə yüksək idarəçilikdə qadınların sayı formal iştiraka hesablanmış aqrar-sənaye sahələrində çalışan qadınların təmsilçiliyi məqbul hesab edilirdisə, müstəqillik dövründə bu balans hüquq, iqtisadiyyat, elm və digər sahələr üzrə mütəxəssislərin seçkili orqanlarda iştirakı hesabına təmin olunur. Qadının iş və ailə həyatının balanslaşdırılması naminə nəzərdə tutulan addımlar qadının gücünə və bacarığına inamsızlıq, yaxud kişilərin səlahiyyət bölgüsündə həvəssiz iştirakı iddialarının böyüklüyü yox, qadına türk təfəkkürü və islam ideoloji amilinin Azərbaycan

modelinin humanist dəyəri kimi qiymətləndirilməsi daha ədalətli yanaşmadır. Bu baxımdan "Azərbaycanda gender bərabərliyi yeni məsələ deyildir" [4, s.5] fikrinin məntiqi əsası var.

Gender siyasətinin müstəqil Azərbaycan Respublikasının dövlət siyasətində aparıcı mövqeyini ifadə edən bəzi məqamların xatırlanması məqsədəuyğundur. Hər şeydən əvvəl, Azərbaycan Respublikasının Konstitusiya aktında (maddə 25) qadın və kişilərin hüquq bərabərliyi təsbit olunmuşdur [2].

1995-ci ildə Azərbaycan Respublikası "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyaya qoşuldu. Azərbaycan nümayəndələrinin də iştirak etdiyi Pekin Konfransının qəbul etdiyi Bəyannamənin əsas diqqətçəkən məqamı ondan ibarət idi ki, bu sənəd gender bərabərliyinə yalnız qadınların kişilərlə tərəf- müqabilliyi əsasında nail olmaq mümkünlüyünü bəyan etdi.

1998-ci il yanvarın 14-də Prezident Heydər Əliyev "Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında" fərman imzaladı. Daha sonra Milli Fəaliyyət Planının hazırlanması və təsdiq olunması ilə dövlət siyasətində Genderin rolu və yeri təsbit edildi. 2006-cı ildə Gender haqqında Qanun qəbul olundu.

Bu addımlar həm də siyasi müstəqilliyini əldə etmiş Azərbaycanın beynəlxalq təcrübənin öyrənilməsi, problemin həlli üçün hüquqi bazanın yaradılması və möhkəmləndirilməsi sahəsində atdığı əməli tədbirlər kimi qiymətləndirilməlidir. Siyasi və mədəni dəyərlərin qorunması bütövlükdə Azərbaycanın dövlətçilik siyasətində etnik-dini-cinsi diskriminasiyaya yol vermədən hər bir vətəndaşının hüquqlarının təmin edilməsi, qanunun aliliyinin, eləcə də demokratiyanın qorunması öhdəliklərinə ekvivalentdir.

Beynəlxalq konvensiyalara qoşulmaq siyasətinin kökündə həm də dünyada humanizmin və ədalətin, sülhün və əmin-amanlığın bərqərar olması naminə ümumbəşəri ideyalara öz xalqının çoxəsrlik ənənə və dəyərləri ilə töhfə vermək kimi nəcib bir məqsəd durur. Türk xalqlarının, o cümlədən azərbaycanlıların mifoloji-tarixi baxışlarında mühüm yer tutmuş, düşüncə, inanc və hüquq sistemində təsbit olunmuş multikultural yanaşma xüsusən qadına münasibətdə daha parlaq və sabit təzahürü ilə tarixən fərqlənmişdir.

Gender maarifləndirilməsi proqramının həyata keçirilməsi siyasəti və qanunvericilik sənədlərinin işlənməsi mexanizmi üzrə maarifləndirmə, məlumatlandırma müstəqillik dövrü Azərbaycan mediasının əsas mövzuları sırasındadır. Çünki demokratik dövlət quruculuğu sahəsində genderin rolu və əhəmiyyətinin düzgün qiymətləndirilməsi cəmiyyətin sağlam mənəvi əsaslar üzərində inkişafını şərtləndirir.

Bu gün cinsi dəyişmə halı "dəbə" düşsə də, mənəvi dəyərlər müstəvisində bu kimi təzahürlər Azərbaycan cəmiyyət üçün yolverilməz və arzuolunmaz olsa da, sosial şəbəkələrin sərhədsiz və müqavimətsiz yayım imkanları fonunda artan narahatlıqlar, müxtəlif suallar doğurmaqla müzakirə və mübahisə obyekti olaraq qalır.

Beynəlxalq çağırışlarıda aksentləşdirilən məsələlər fonunda Gender Bərabərliyi İndeksi (GBİ) – Qadın səlahiyyətlərinin artırılması indeksinin səviyyəsi ilə bağlı mediada məlumatların müşahidə edilməsi göstərir ki, bu sahədə dövlət siyasəti və vətəndaş cəmiyyəti yanaşmalarının şərhində balanslaşdırma səviyyəsi müxtəlifdir. Bu müxtəliflik rəsmi və müstəqil mətbuatda, müxalifət mediasında fərqli aspektlərdə işıqlandırılır. Məsələn, qadının iqtisadi asılılığının aradan qaldırılmasını vəd edən qadın sahibkarlığının inkişafına yaradılan şərait qadının iqtisadi müstəqilliyinin şərti kimi göstərilirsə, çoxdan həllini tapmış təhsil, kvota, hüquq bərabərliyi əvəzinə bərabər imkanlar barədə həllini gözləyən problemlər kimi yanaşılması medianın bu sahədə savadlılığının ürəkaçan olmayan göstəriciləri sırasındadır. Bu sahədə müəyyən mütərəqqi təcrübənin öyrənilməsi və yayılması, "təcrübənin bölüşdürülməsi" kimi səmərəli üsullar çox da geniş təbliğ olunmur. Kütləvi kommunikasiya bu istiqamətdə müəyyən addımları daim diqqətdə saxlamaqla, məsələn, milli qanunvericiliyin, eləcə də sosial-iqtisadi inkişafla bağlı dövlət sənədlərinin gender

ekspertizasının nəticələrinin, insan haqları sahəsində ratifikasiya olunmuş beynəlxalq sənədlərdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi ilə bağlı dövlət və ictimai institutlarının fəaliyyətinin işıqlandırılması ilə həm də gender maarifləndirməsini həyata keçirir.

Gender ierarxiyasında kişilərin hələ də yüksək mövqeyinin qiymətləndirilməsində cəmiyyətdə, bəzən bədii yaradıcılıqda da təkrarlanan nüansları belə qruplaşdırmaq mümkündür ki, güc və imtiyazlar baxımından iqtisadi vəziyyətin reallıqları, etnik-milli özünəməxsusluqların nəzərə alınması, inanc, təhsil və digər sosial amillərə yanaşmalar stereotip münasibəti daim "təzə saxlayır". Məsələn, müstəqillik əldə etmiş Azərbaycan cəmiyyəti fikir, söz, ifadə azadlıqları ilə bağlı təsəvvürlərdə o qədər irəli getdi ki, bu ifadələr arasındakı incə fərq və səciyyəvi cəhətlərin fərqinə varmadan azadlığın eyforiyasına qapıldı. Bu ovqat xüsusilə dini etiqad azadlığının dərkində mahiyyətə yox, simulyativ elementlərə aludəçiliyi dominant üslubi elementə çevirdi. İslamın əsasları anlayışı qadının cəmiyyətdə rolu və yeri ilə bağlı düşüncələrdə xüsusilə təhlükəli çalar qazandı; qadın emansipasiyası ailə institutunun deqradasiyası səbəbi kimi təhriflərə məruz qaldı. Hicabın gündəm mövzusu kimi aktuallaşdırılması cəhdləri, məzhəb prizmalarının qarşıdurmasına yönələn çağırışlar onsuz da ictimai-siyasi dəyişkənlik, Qarabağ probleminin gətirdiyi çətinliklər fonunda yaşanan sosial-mənəvi problemlərə arzuolunmaz ton verməkdə davam etdi. Azərbaycanın bu münaqişədə zərər çəkmiş dinc əhalisinin 420 min nəfəri qadın, o cümlədən 120 mindən çoxu qaçqın, 288 minə yaxını isə köçkün qadın olmuşdur. Genderşünas, Azərbaycanda gender tədqiqatları üzrə ilk elmlər doktoru Rəna Mirzəzadənin fkrincə, müharibə şəraitində hərbi münaqişə ilə zorakılığa məruz qalmış bu qadınların həyat tərzini köklü dəyişmiş, onları əsas hüquqlarından – yaşayış yerindən, iş yerlərindən, təhsil almaqdan, dinc ailə münasibəti qurmaqdan, ən əsası, insan kimi inkişafdan məhrum etmişdir. Əhalinin bu hissəsinin daha çox qayğı və müdafiəyə ehtiyacı vardır. "Bu qadınların ümumi sayının böyük hissəsi özü ailə başçısı olan və tənha, kimsəsiz şəxslərdir. Reallıq göstərir ki, qaçqın və məcburi köçkün qadınların böyük bir hissəsi yoxsulluq və işsizliklə mübarizə apararaq normal həyat tərzini, çətinliklə də olsa yaşamaq uğrunda mübarizədə öz əsl peşəsini, sənətini, savadını, qadına uyğun ustalıq qabiliyyətini itirmiş xəstə, cavan ikən qocalmış, gücsüz və ağır psixoloji gərginlik vəziyyətindədirlər" [7, s.6].

Bəzi radikal yanaşmalar ailə institutunun deqradasiyası, cəmiyyətin mənəvi tonusunun pozulmasına səbəb kimi qadınların siyasiləşməsi amilini qabartmağa səy göstərdilər. Xarici emissarlar və ölkənin müstəqilliyini iqtisadi-mənəvi böhranla sınağa çəkməkdə maraqlı olan daxili mürtəce cəhdlər iqtisadi asılılığa məhkum edilmiş (özü də bunu mətbuatın azadlığı kimi qələmə verməklə) mətbuatı yad və çaşqın təsirlərin əlində qoydu. "Zəif qadın" – "güclü kişi" qarşılaşdırılması işarə oxunu tərsinə çevirmək cəhdləri ilə sanki qadın hüquqlarının müdafiəsi tribunasına çevrilən bir sıra QHT və media qurumları genderi feminizm kimi təqdim və müdafiə etməklə, əslində, ailə ənənələrinə qarşı təhriklərlə müşayiət olunan fikirlərə meydan verməklə sanki cəmiyyətdə növbəti feminizm dalğasına təkan verdi. 90-cı illərin əvvəlləri üçün xarakterik olan bu mənzərə Azərbaycan dövlətçiliyinin yeni əsaslarının güclü idarəçilik səriştəsi və bacarığı sayəsində, sağlam mənəvi mühitin inkişafına çalışan təsisatların fəaliyyəti ilə tədricən dəyişməyə başladı. Amma bu gün efir məkanı qadını "3000 manatlıq telefon ala bilməyən kişidən boşanmaq haqqın var" çağırışı ilə "cəsarətləndirməkdə" davam edirsə, bu həm də ciddi sual doğurur: Azərbaycan mediası gender problemindən əziyyətmi çəkir? "Məsələ kifayət qədər ciddidir. Bu, eyni hadisə və davranışların təsviri və təqdimində "qadın sürücü", "kişi dələduzluğu" ifadələrinin diskriminasiya təhdidi kimi qiymətləndirilməsindən də ciddi və qorxulu təhlükədir. Bu, ailə institutuna elə bir zərbədir ki, onun fəsadlarını heç bir beynəlxalq təsisatın tövsiyə və norma təklifləri ilə zərərsizləşdirmək mümkün deyildir. Doğrudan da, "televiziya bizim evimizə o adamları gətirir ki, biz özümüz onları evimizin kandarından buraxmazdıq" (D. Forsi).

Ümumilikdə isə sual daha geniş elmi və peşəkar təhlil tələb edir. Bu suala cavab axtarmazdan əvvəl bir məsələni qeyd etmək istərdik. Gender balansı həmişə və hər yerdə uğurlu həll yoludursa, o

zaman Azərbaycan humanitar fikir sahəsində balans qadınların xeyrinə dəyişməkdədir; Filologiya, jurnalistika ixtisasları üzrə təhsil alanların tərkibini müşahidə etmək kifayətdir. Hətta problemin həlli ilə bağlı müraciətlərdə belə, disbalansla bağlı həssaslıq nümayişləri də mövzu ilə bağlı etik prinsip və davranışlarda, yanaşma və üslubda korrektə zəruriliyini qeyd edir.

Gender bərabərliyinin təminatı ilə bağlı mükəmməl qanunvericilik və icra mexanizminə nail olan ölkələr sırasında xarici ekspert rəyləri Belarus, Gürcüstan, Tacikistan, Çexiyanın adını çəkir. Yerli media eksperti Aynur Bəşirli isə bu mövzuda Türkiyə və Bolqarıstan təcrübəsinin öyrənilməsinin tərəfdarıdır [3, s.11].

Genderin elmi təsnifatı və gender bərabərliyi ilə bağlı araşdırmalarda istinad ola biləcək mənbələr sırasında qabaqcıl Avropa, dünya təcrübəsindən yararlanmaq vacibdir. Bu sahədə milli genderşünaslığın nəzəri məsələlərinin tədqiqi ilə bağlı AMEA-nın müvafiq strukturlarının fəaliyyətinin izlənilməsi, milli kadrların nəzəri-təcrübi bazasının öyrənilməsi Azərbaycan media mühiti və Azərbaycan cəmiyyəti üçün faydalı mənbələr ola bilər. Amma tarixi təcrübə dönə-dönə sübut etmişdir ki, hər bir cəmiyyətin mənəvi əsasında əsrlərlə formalaşmış yazılmamış qanunları, mənəvi-əxlaqi dəyərlər, sağlam milli kimlik şüurundan qidalanan ailə ənənələri, eləcə də milli mədəniyyətə və dəyərlərə qoruyucu münasibət dayanır. Bunu Azərbaycan milli jurnalistika məktəbini formalaşdırmış qabaqcıl düşüncənin 150 illik mahiyyəti diktə edir.

Gender mövzularında "təkrarlanan nüanslar" məsələnin hələ bir tərəfidir. Gender problemlərinin mediada işıqlandırılmasının sirayətləndirmə gücü ilə ciddi narahatlıq doğuran daha bir məqam bu və buna bənzər təsəvvürlərin qabarıqlığından daha təhlükəli hesab etdiyimiz həmin mətnlərdə işlənilən leksika, metaforalarla bağlıdır. Peşəkar və qeyri-peşəkarlığından asılı olmayaraq, qələm adamının qadın-kişi müqayisəsinə ciddi cəhdlə can atması, bu müqayisənin əlverişsiz şəkildə aparılması da yanlış təsəvvürləri, başqa sözlə, stereotip yanaşmaları tirajlayır. Bu ritorika cəmiyyətdə mənəvi balansın pozulmasını mənəvi mühitdə zərərli atmosferi, "ekoloji çirklənməni" sürətləndirir ki, bundan həm də ailə institutunun deqradasiyası qaynaqlanır. Mənəvi aşınmalardan zərər çəkən digər bir tərəf isə, uşaqlar olur. Media, ədəbi düşüncə qadını "zəif", " haqqı tapdanan", "fiziki və mənəvi zorakılığa, xüsusilə məişət zorakılığına məruz qalan" tərəf kimi təqdim etmək düşüncəsindən və vərdişlərindən əl çəkmədikcə biososial qruplar arasında ziddiyyətlərin dərinləşməsi və qütbləşməsi baş verir.

Mənəvi və sosial-mədəni mühitin mənfi amillər hesabına pozulması əsrlərlə formalaşmış milli-mənəvi dəyərlərin, milli və fərdi mənlik şüurunun korşalmasına, tədricən survival qalıq kimi dərk və qəbul olunmasına gətirib çıxarması şübhə doğurmamalıdır.

Milli əxlaq və milli zövq anlayışlarının sıradan çıxarılmasına hesablanmış fürsətcil "humanitar hücum" taktikası və strategiyasının arxasında duran niyyət və məqsədlərin qarşısının alınmasında mənəvi məsuliyyətini dərk etməyən QHT və onların təsiri altında olan media subyektləri mənəvi kapitalın talanmasında bilərəkdən və ya bilməyərəkdən vasitəçi – iştirakçıya çevrilir.

Kütləvi kommunikasiyanın bu sahədə yalnız yazılı yox, həm də qrafik informasiya – foto və reklam imkanlarından istifadəsində də müəyyən nöqsan və çatışmazlıqlar özünü göstərir. Deməli, yalnız yazı əhli – yazıçı, jurnalist deyil, redaktor, operator, illüstrator, fotoqraf, dizayner, tədqiqatçı qismində bütün " yayım" komandası bir məsələni unutmamalıdır ki, hər bir hadisə istər məişət müstəvisində, istər ictimai-siyasi müstəvidə baş verən, qeydə alınan, tirajlanan, təbliğat-təşviqat məqsədilə emal olunan fakt və şərhin məzmunu cəmiyyətin müxtəlif təbəqələri tərəfindən eyni cür qarşılanmır. Bu gün qadın, uşaq, həssas təbəqələrlə bağlı müəyyən etik normaları peşəkar tərzdə diqqətdə saxlamağa çalışan media subyektləri də bəzən unudurlar ki, məsələn, uşaqlarla bağlı, uşaqlar haqqında yayılan hər bir informasiyada uşaq haqları, etik yanaşmalar nə qədər gözlənilsə də, onlar heç bir halda "uşaqların olmadığı mühitdə" yayımlanmır; ən azı ona görə ki, belə bir mühit, ümumiyyətlə, artıq yoxdur. İnformasiya texnologiyaları informasiya mühitini artıq çoxdan "şəffaf əraziyə" çevirmişdir. Ona görə də bu gün, məsələn, jurnalistikanın, eləcə də ədəbiyyatın, xüsusən

gənc yazıçılara səxavətlə tribuna olan nəşrlər və platformaların məqsədi və funksiyası yalnız cəmiyyəti informasiya ilə təmin etmək deyil, informasiyanın, o cümlədən gender mövzularının cəmiyyətə necə təsir etməsinin, edəcəyinin nəzərə alınması, başqa sözlə, nəyi necə təqdim etmək olmalıdır. Bu, yalnız yerli media mənzərəsində diqqət edilməsi tövsiyə olunan bir problem deyil. Kütləvi informasiya vasitələrinə yeni yanaşmanın vacibliyini tövsiyə edən beynəlxalq institutlar, məsələn, Avropa Şurasının eyni məzmunlu sənədlərində xüsusi qeyd olunur ki, ayrı-seçkilik və stereotiplərlə mübarizəyə yönələn təşəbbüslərə dəstək verməklə gender bərabərliyinin təşviqinə diqqət edilməsi müasir medianın mühüm vəzifələrindəndir.

Unutmaq olmaz ki, cinslərarası münasibətlərin yeni eqalitar tipi ailə münasibətlərində şəxsiyyətlərin bir-birini tamamlaması münasibətlərində qurulur.

Bu bir faktdır ki, total kişi idarəçilik siyasətinin zəifləməsi XXI əsrin səciyyəsidir. Himayəsiz qocalar, narkomaniya və əyyaşlıq, fahişəlik və kişi feminizasiyası, qadın maskulinizasiyası cəmiyyəti süquta aparır, yoxsa cinslərarası münasibətlərin patriarxallıqdan eqalitarlığa keçidini səciyyələndirir.

## Nəticə / *Conclusion*

Genderin ümumtəhsil məktəblərində və ali təhsil müəssisələrində tədrisi ilə bağlı əməli təkliflərin dəyərləndirilməsi zərurəti günün reallıqları ilə səsləşən ideyadır. İlkin təsəvvür və kateqoriyaların mənimsənilməsi, bədii-fəlsəfi-elmi irslə ümumi tanışlıq yeniyetmə və gənclərin ümumi inkişafında, dünyagörüşünün formalaşmasında sağlam təfəkkürlü potensiala nail olmaq tədrisin və təhsilin strateji və mənəvi məzmununu şərtləndirən amillər sırasındadır.

## Ədəbiyyat / *References*


1. AŞ Nazirlər Komitəsinin üzv dövlətlərəinternet istifadəsi üçün İnsan hüquqları Bələdçisinə dair Tövsiyəsi. CM/Rec(2014).
2. Azərbaycan Respublikasının Konstitusiyası. – Bakı, 2006.
3. Bəşirli A. “Azərbaycan mediasında gender problemi var?” “Şərq” qəzeti, 8 avqust 2019-cu il.
4. Qəhrəmanova S. “Gender bərabərliyi Azərbaycan üçün yeni məsələ deyil”. “525- ci qəzet”, 25 may 2012-ci il.
5. Məhərrəmli Q. Mediada işlənən alınma sözlər. – Bakı, 2008, 254 səh.
6. Mirzəzadə R. “Gender:fəlsəfi, tarixi və siyasi-hüquqi istiqamətlər” mövzusunda fəlsəfə elmləri doktorluğu üzrə dissertasiyası. D/Az 2003, 195 səh.
7. Mirzəzadə R. “Qarabağ münaqişəsi gender müstəvisində”. anl.az/et/q/ qarabag_2/ q – 42.htm


# Проблема национальной идентификации и гендерства в постмодернистском обществе


**Судаба Агабалаева**
Доктор философии по филологии
Бакинский Славянский Университет
E-mail: sudabe334@mail.ru



В статье говорится о том, что термин «гендер», не имевший нового значения, около 40 лет принят в обороте в азербайджанских научно-массовых изданиях. В разные этапы мировой истории к понятиям матриархат и патриархат было различное отношение. Было бы неверно пытаться рассматривать эти различия, не учитывая влияния сущности, характера отношений

между полами. Именно это разделение, дисбаланс, создавший эти биологические и социальные различия между полами, на деле создал предпосылки для развития гендерных исследований.
Сегодня международные правовые документы в однозначном порядке отмечают, что вопросы, поставленные перед женщинами для достижения гендерного равенства, могут быть решены только на основе равноправного партнёрства с мужчинами.
В философско-политическом контексте этот термин служит понятием равных отношений между полами в происходящих в обществе процессах, а в правовом аспекте означает право равенства.

**Ключевые слова:** медиа, гендер, феминизм, национально-духовные ценности, институт семьи, просветительство